**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№342/2** **04 aprel 2022-ci il**

**Auditor təşkilatlarının və sərbəst auditorların 2021-ci il üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanmasına dair hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.4-cü "Auditor təşkilatları və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatlarının və sərbəst auditorların 2021-ci il üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabat" nəzərə alınsın (əlavə olunur).

2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

2.1. Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq auditor xidmətinin göstərilməsini, fəaliyyətlərində daxili nəzarətin gücləndirilməsini təmin etsinlər, haqsız rəqabət və dempinq hallarına yol verməsinlər.

2.2. Auditor xidməti bazarında xidmət haqqı məbləğlərini yolverilməz dərəcədə aşağı salmaqla Auditorlar Palatasının digər üzvlərinə qarşı haqsız rəqabətin və dempinq hallarının artmasının və keyfiyyətsiz auditor xidməti göstərilməsinin qarşısının alınması ilə əlaqədar Palatanın üzvləri tərəfindən imzalanmış Partnyorluq Sazişinin müddəalarına riayət etsinlər.

2.3. Auditor xidməti göstərərkən təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılmasına xidmət edə biləcək əsaslandırılmış tövsiyələrin verilməsi praktikasının genişləndirilməsini təmin etsinlər;

3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

3.1. On gün müdətində 2021-ci ilin yekunu üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu təsərrüfat subyektləri, o cümlədən səhmdar cəmiyyətləri (64,4%), məhdud məsuliyyətli cəmiyyətlər (47,8%), siyasi partiyalar (41,8%) və bələdiyyələr (34,0%) barədə təsnifləşdirilmə aparılsın və aidiyyəti qurumlara müvafiq məlumatların göndərilməsi təmin edilsin;

3.2. Məcburi auditdən yayınmanın qarşısının alınması məqsədilə auditor xidmətinin sifarişçiləri ilə müntzəm olaraq maarifləndirici və təşviqat işlərinin aparılması təmin edilsin.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki:

4.1. Auditorlar Palatası Şurasının "Haqsız rəqabətin aradan qaldırılması haqqında" 2022-ci il 15 fevral tarixli 340/1 nömrəli qərarı ilə 2022-ci ilin "Auditor fəaliyyəti sahəsində haqsız rəqabətə qarşı mübarizə" ili elan edildiyini nəzərə alaraq, Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə ilə birlikdə auditor təşkilatları və sərbəst auditorlar arasında rəqabətli bazar mühitinin dəstəklənməsinin davam etdirilməsi, auditor təşkilatlarının tenderlərdə iştirak etməsinin beynəlxalq təcrübəyə əsaslanmış kriteriyalara əsasən qiymətləndirilməsinin təşkil və təşviq olunması təmin edilsin.

4.2. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə ilə birlikdə 2022-ci il ərzində haqsız rəqabətin aradan qaldırılmasına dair metodik vəsaitlərin təkmilləşdirilməsi, auditor xidməti bazarında haqsız rəqabətə yol verən auditorlara qarşı təsirli və çevik tədbirlərin görülməsi, bu sahədə hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi təmin edilsin.

5. Bu qərarın mətni "Auditorun şəxsi kabineti" sistemində və Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**

* Daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq auditor xidməti üzrə tender, kotirovka və satınalmalar sahəsində mğvcud olan çatışmazlıqların aradan qaldırılması məqsədilə təkliflərin hazırlanması üçün işçi qrupu yaradılsın.